*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 9 oktyabr 2019-cu il № 78 (2395) Qiyməti 30 qəpik


# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında iştirak edib

*Oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında iştirak edib. Sessiyada Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən danışan Prezident İlham Əliyev Ermənistanın işğalının nəticələrinə diqqət yönəldib:*




- Daimi diskussiyaların mövzularından biri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsidir. Rusiya ATƏT-in Minsk Qrupunun həmsədridir. Onun vasitəçilik üçün mandatı var. Qeyd etməliyəm ki, Dağlıq Qarabağ və Azərbaycanın digər 7 rayonu 25 ildən çoxdur erməni işğalı altındadır. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Sovet dövründə Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılmışdı. Qeyd etməliyəm ki, bu münaqişə ilə əlaqədar çox vaxt reallığı əks etdirməyən geniş fikir müxtəlifliyi var. Bu məsələyə aydınlıq gətirmək üçün deməliyəm ki, 1921-ci ildə Qafqaz bürosunun qərarında Dağlıq Qarabağın çox vaxt erməni tərəfinin interpretasiya etdiyi kimi, Azərbaycana verilməsi deyil, onun Azərbaycanın tərkibində qalması göstərilmişdir. Münaqişə başlayana qədər Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində yaşayan azərbaycanlı və erməni əhalinin say nisbəti 25:75 faiz kimi olub. Münaqişə nəticəsində Dağlıq Qarabağdan, həmçinin digər 7 rayondan bütün azərbaycanlı əhali qovulub, başqa sözlə desək, orada etnik təmizləmə aparılıb.

Bu gün də işğal olunmuş ərazilərdə azərbaycanlı əhali yoxdur və işğal olunmuş ərazilər, onların böyük bir hissəsi yandırılmış, dağıdılmış torpaqlar, viran qoyulmuş evlər, məktəblər, ictimai binalardır. Münaqişə nəticəsində Azərbaycan humanitar fəlakətlə üzləşib. Dağlıq Qarabağdan və Azərbaycanın işğal olunmuş digər ərazilərindən olan 700 mindən çox məcburi köçkün, üstəgəl müasir Ermənistanın ərazisindəki öz tarixi torpaqlarından qovulmuş 250 min azərbaycanlı. BMT Təhlükəsizlik Şurası erməni silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul edib. İyirmi beş ildən çoxdur ki, bu qətnamələr yerinə yetirilmir. Burada biz mühüm məsələyə - qəbul olunmuş qərarların yerinə yetirilməsinə gəlirik. BMT Təhlükəsizlik Şurası ali beynəlxalq orqandır. Əgər 25 ildən çox müddətdə Təhlükəsizlik Şurasının qəbul etdiyi qərarlar yerinə yetirilmirsə, onda bu, həmin təşkilatın səmərəliliyi ilə bağlı bir çox suallar doğurur. Azərbaycanda bizi qətnamələrin yerinə yetirilməsinin reallaşdırılmasının seçmə xarakteri narahat edir. Bəzən onlar bir neçə gün ərzində yerinə yetirilir, bəzən isə müəyyən hərbi əməliyyatların həyata keçirilməsində onlara, ümumiyyətlə, ehtiyac qalmır. Bizimlə bağlı məsələdə isə qətnamələr kağız üzərində qalır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, BMT-nin bütün dünya tərəfindən qəbul edilmiş Nizamnaməsi, BMT Təhlükəsizlik Şurasının qətnamələri və Helsinki Yekun Aktı çərçivəsində həll olunmalıdır. Ermənistanın baş naziri son vaxtlar tez-tez təkrarlayır ki, münaqişənin həlli Azərbaycan xalqı, Ermənistan xalqı və Dağlıq Qarabağ xalqı üçün məqbul olmalıdır. İndi deməliyəm ki, "Dağlıq Qarabağ xalqı" məfhumu mövcud deyil. Dağlıq Qarabağın əhalisi var, münaqişə başlayana qədər bu, bərabər hüquqlara malik olan Azərbaycan və erməni əhalisindən ibarət idi. Azərbaycan üçün hansı həll variantının məqbul olmasına gəldikdə isə, o, Azərbaycanın bütün dünya tərəfindən tanınmış ərazi bütövlüyünün bərpa olunması, qaçqınların və məcburi köçkünlərin öz doğma torpaqlarına, o cümlədən Dağlıq Qarabağa qayıtmasından ibarətdir. Bu, Təhlükəsizlik Şurasının qətnamələrinə və Helsinki Yekun Aktına uyğundur.

Deməliyəm ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü bu gün də davam edir. Dünən erməni snayperi tərəfindən dinc sakin, münaqişə zonasından uzaqda, Ermənistanın Azərbaycanla sərhədində yerləşən Qazax rayonunun sakini qətlə yetirilib. Həmçinin deməliyəm ki, 2016-cı ilin aprelində hərbi təxribat zamanı altı dinc sakin, o cümlədən balaca qız qətlə yetirilib.

Həmçinin Ermənistan baş nazirinin təəccüb doğuran bəyanatına toxunmaq istərdim. Bu bəyanat təkcə Azərbaycanda təəccüblə qarşılanmayıb, ona Rusiya Federasiyası tərəfindən də "Valday" forumu çərçivəsində müvafiq cavab verilib. Beləliklə, bəyanat sözbəsöz belədir: "Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə". Birincisi, yumşaq desək, bu, yalandır. Dünya tərəfindən həm Aran, həm də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi tanınıb. Ermənistan özü də bu qanunsuz qurumu tanımır. Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi.

İşğala, 1990-cı illərin əvvəlində ölkəmizdə hər səkkiz nəfərdən birinin qaçqın olduğu humanitar fəlakətə baxmayaraq, Azərbaycan böyük inkişaf və quruculuq yolu qət edib. Ölkədə oyuncaq, xalqazidd, satqın Xalq Cəbhəsi rejiminin hakimiyyətdə olduğu müstəqilliyin ilk illəri istisna olmaqla, 26 ildir Azərbaycan sabitlik şəraitində yaşayır və burada əsas xidmət vətəndaş müharibəsinin qarşısını almış, işğalı dayandırmış, xaosun, dağıntının öhdəsindən gəlmiş və Azərbaycanı quruculuq yoluna çıxarmış Prezident Heydər Əliyevə məxsusdur. Beləliklə, 26 ildir ki, Azərbaycan xalqı sabitlik və inkişaf şəraitində yaşayır. Ölkəmizin beynəlxalq mövqeləri möhkəmlənir. Bunun göstəricilərindən biri bir neçə il əvvəl ölkəmizin 155 dövlətin səsi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsidir. Bu, o qədər də asan deyildi, bizim üçün 3 gün və 16 tur tələb olundu, lakin ədalət zəfər çaldı. Həmçinin qeyd etmək istərdim ki, Rusiya Federasiyası və digər 154 ölkə bizə böyük dəstək verdi.

Bizi sevindirir ki, Bakı artıq bir neçə ildir Rusiya və NATO-nun ali hərbi komandanlıqlarının görüş yeri seçilir. Bunu bizə göstərilən etimadın ifadəsi kimi qiymətləndiririk. Bu ayın sonunda Bakıda Qoşulmama Hərəkatının sammiti keçiriləcək. Azərbaycan 3 il müddətinə bu təşkilatın sədri olacaq.

**AZƏRTAC-ın materialları əsasında**

AZƏRBAYCAN ORDUSU

# Azərbaycanın Müdafiə naziri Rusiyanın Baş hərbi prokuroru ilə görüşüb

*Oktyabrın 8-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Rusiya Federasiyası Baş prokurorunun müavini - Baş hərbi prokuror, 1-ci dərəcəli dövlət ədliyyə müşaviri Valeriy Petrovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.*



Qonaqları salamlayan Müdafiə naziri ölkələrimiz arasında əlaqələrin inkişaf etməsində dövlət başçılarının böyük rol oynadıqlarını, əməkdaşlığın dostluq münasibətləri və qarşılıqlı etimad əsasında aparıldığını, eləcə də hərbi və hərbi-texniki sahədə əməkdaşlığın genişlənməsi baxımından zəruriliyini qeyd edib.

Bölgədəki hərbi-siyasi vəziyyətə və təhlükəsizlik məsələsinə toxunan general-polkovnik Zakir Həsənov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin regional sabitliyə əsas təhlükə olduğunu, onun Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüququn norma və prinsipləri əsasında həllinə nail olunmasının vacibliyini vurğulayıb.

Ali Baş Komandanın tapşırığına əsasən, Azərbaycan Ordusunda aparılan genişmiqyaslı islahatların cinayət hadisələrinin sayının azalmasına səbəb olduğunu diqqətə çatdıran Müdafiə naziri Respublika Hərbi Prokurorluq orqanları ilə birgə həyata keçirilən tədbirlərin əhəmiyyətini də qeyd edib.

Rusiya Federasiyası Baş prokurorunun müavini - Baş hərbi prokuror V.Petrov da ölkələrimiz arasındakı əlaqələrin tarixi köklərə əsaslandığını, hər iki ölkənin strateji tərəfdaş olduğunu qeyd edərək hərbi nümayəndələrin qarşılıqlı görüşlərinin təşkili və keçirilməsinin ikitərəfli münasibətlərin inkişafı baxımından mühüm rol oynadığını bildirib.

Tərəflər qeyd ediblər ki, hər iki ölkənin hərbi hüquqşünaslarının səyləri cinayətkarlıqla mübarizənin gücləndirilməsi, qoşunlarda hüquq qaydalarının təmin edilməsi, ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi, korrupsiya hallarının istənilən formalarının istisna edilməsi, hərbi qulluqçuların və onların ailə üzvlərinin hüquqlarının və qanuni maraqlarının müdafiə edilməsinə yönəldilib.

Tərəflər, həmçinin bu səfərin səmərəli və faydalı, gələcək əlaqələrin isə daimi və sıx olacağına ümidvar olduqlarını bildiriblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Bakı Qarnizonunda nizam-intizamın vəziyyəti təhlil edilib



Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində 2019-cu ilin 3-cü rübünün yekunlarına dair Bakı Qarnizonunda döyüş hazırlığının və hərbi nizam-intizamın vəziyyətinin təhlilinə dair müşavirə keçirilib. Tədbirdə qarnizonda yerləşən hərbi hissələrin komandirləri, xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin rəhbərləri və digər vəzifəli şəxslər iştirak ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, müşavirədə Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev qarnizon ərazisində görülən işlər, əldə olunan uğurlar barədə çıxış edib və qarnizonda döyüş hazırlığının, hərbi nizam-intizamın yüksəldilməsi ilə əlaqədar müvafiq tapşırıqları vəzifəli şəxslərin diqqətinə çatdırıb.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Soçidə keçirilən "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında çıxışı zamanı səsləndirdiyi "Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi" fikrinin Azərbaycan Ordusunda böyük ruh yüksəkliyi ilə qarşılandığını Müdafiə nazirinin müavini xüsusi vurğulayıb.

General-leytenant K.Vəliyev şəxsi heyətin nizam-intizamın möhkəmləndirilməsi, yanğın təhlükəsizliyinin və yanğına qarşı tədbirlərin yerinə yetirilməsinin təmin olunmasına nəzarətin gücləndirilməsi, eləcə də keçirilən praktiki dərs və təlimlər zamanı şəxsi heyətin təhlükəsizlik qaydalarına ciddi riayət etməsi, sürücü heyətin peşəkarlığının artırılması və yol hərəkəti qaydalarına əməl edilməsi məqsədilə vəzifəli şəxslər qarşısında konkret tapşırıqlar qoyub.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

*8 oktyabr 2019-cu il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 20 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan kəndində və adsız yüksəkliklərdə, İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım, Aşağı Əskipara kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Tağıbəyli, Füzuli rayonunun Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Əlahiddə Ümumqoşun Orduda komanda-qərargah təlimi keçirilib

*"Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının 2019-cu tədris ilinə uzlaşdırma planı"na əsasən, komanda-qərargah təlimi keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlimin keçirilməsində məqsəd birləşmə və hissələrin döyüşə hazırolma vəziyyətinin yoxlanılması, mühafizədən müdafiəyə keçərkən uzlaşmış fəaliyyətə nail olunması, müdafiə döyüşünün aparılması zamanı döyüş düzülüşü elementlərinin fəaliyyətinin təkmilləşdirilməsi olub.

Praktiki fəaliyyətlərə cəlb olunan bölmələr döyüş atışlarını yerinə yetiriblər. Ərazidə qəbul edilən qərarlar Naxçıvan Qarnizonunun Simulyasiya Mərkəzində kompüterlər üzərində xüsusi proqram vasitəsilə icra edilib.

Təlimin sonunda icra edilən fəaliyyətlərin təhlili aparılan zaman bildirilib ki, qarşıya qoyulmuş tapşırıqların tam həcmdə yerinə yetirilməsində zabitlərin peşəkarlığı və ən müasir vasitələrin tətbiqi mühüm rol oynayıb.



# Xüsusi təyinatlı təhsil müəssisələrində “Beynəlxalq Müəllimlər Günü” qeyd olunub

*"Beynəlxalq Müəllimlər Günü" münasibətilə xüsusi təyinatlı təhsil müəssisələrində bayram tədbirləri keçirilib. Tədbirlərdə ümummilli lider Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib.*





Heydər Əliyev adına Hərbi Liseydə “Beynəlxalq Müəllimlər Günü” münasibətilə tədbir keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə Hərbi liseyin rəisi general-mayor Məhəmməd Həsənov muxtar respublikada təhsil sahəsinə göstərilən diqqət və qayğıdan, müəllim əməyinə verilən yüksək qiymətdən, liseydə yaradılan müasir tədris şəraitindən danışıb.

Çıxışlarda bildirilib ki, vətənpərvər və geniş dünyagörüşlü gənclər formalaşdıran müəllimlərin əməyi hər zaman dövlətimiz tərəfindən yüksək qiymətləndirilir. Hazırda Heydər Əliyev adına Hərbi Liseydə çalışan müəllimlərdən 1 nəfəri Azərbaycan Respublikasının, 2 nəfəri Naxçıvan Muxtar Respublikasının "Əməkdar müəllimi" fəxri adlarına layiq görülüb, 1 müəllim "Tərəqqi" medalı və 2 müəllim isə "Rəşadətli əməyə görə" nişanı ilə təltif olunub. Hərbi liseydə fəaliyyət göstərən pedaqoji kollektivin vətənpərvərliyinin və peşəkarlığının nəticəsidir ki, kursantların təhsilində, tərbiyəsində və intizamında uğurlar qazanılıb.

Çıxışların ardından təhsildə fərqlənən müəllim və kursantlara Əlahiddə Ümumqoşun Ordu komandanlığı tərəfindən fəxri fərman və qiymətli hədiyyələr təqdim edilib.

* * *

Naxçıvan Qarnizonu tam orta məktəbində də “Beynəlxalq Müəllimlər Günü” qeyd edilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə bildirilib ki, ötən tədris ilində məktəbin 21 məzunundan 19 nəfəri ali təhsil müəssisələrinə, 2 nəfəri isə orta ixtisas təhsili müəssisələrinə daxil olub. Məzunlardan 5 nəfəri daha yüksək nəticə göstərib. Muxtar respublikada müəllim əməyinə verilən yüksək qiymətin nəticəsidir ki, Naxçıvan Qarnizonu tam orta məktəbində dərs deyən müəllimlərdən 3 nəfəri Azərbaycan Respublikasının, 1 nəfəri Naxçıvan Muxtar Respublikasının "Əməkdar müəllimi" fəxri adlarına layiq görülüb, 1 müəllim "Tərəqqi" medalı və 1 müəllim isə "Rəşadətli əməyə görə" nişanı ilə təltif olunub.

Çıxışların ardından təhsildə fərqlənən müəllimlər qiymətli hədiyyə və fəxri fərmanla təltif ediliblər. Sonda şagirdlər müəllimlərini müxtəlif mahnı və şeir nümunələri ilə təbrik ediblər.

* * *

"Beynəlxalq Müəllimlər Günü" münasibətilə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təntənəli bayram tədbiri keçirildi.

Tədbiri giriş sözü ilə açan polkovnik Ruslan Məmmədov bildirdi ki, müəllim peşəsi həyatda ən müqəddəs peşələrdən biridir. "Müəllim adı xalqımız tərəfindən bütün zamanlarda uca tutulub. Onların əməyi nəticəsində cəmiyyət formalaşır, bilikli, geniş dünyagörüşlü, nümunəvi insanlar yetişirlər. Xalqımızın mədəni, mənəvi inkişafında müqəddəs peşə sahiblərinin rolu misilsizdir. Müəllimlər yeni cəmiyyət quruculuğunun memarlarıdır. Hər bir şəxsin layiqli vətəndaş kimi formalaşmasında, gələcəyin Vətən müdafiəçilərinin vətənpərvərlik ruhunda tərbiyə olunmasında müəllimlərin əvəzsiz rolu var. Ömrümüzün bütün mərhələləri müəllim adı, müəllim əməyi ilə bağlıdır. Babalarımızın hərb tarixi səhnəsində göstərdikləri qəhrəmanlıqların təbliği, bugünkü nəslimizdə böyük sərkərdələrin formalaşması sahəsində, siz müəllimlər şərəfli vəzifəni yerinə yetirirsiniz. Xalqımızın ümummilli lideri Heydər Əliyev müəllimlərin əməyini qiymətləndirərək deyirdi: "Azərbaycanın müəllimləri ən yüksək mənəviyyata, vətəndaşlıq hisslərinə malik olan insanlardır". Gənclərimizin Vətənə sədaqət, vətənpərvərlik ruhunda tərbiyə edilməsində AAHM-də çalışan professor-müəllim heyətinin qarşısında mühüm vəzifə dayanır".

- Müəllimlik dünyada ən çətin, eyni zamanda, çox şərəfli və gözəl peşədir, - deyə polkovnik Emin Səfərov çıxışına başladı. - Müəllimlər insanların dərin və hərtərəfli savad almaları, yaşadıqları dövrün sınaqlarından daim uğurla çıxmaları üçün bilik və bacarıqlarını sərf edirlər. Hazırda dövlətimizin müstəqilliyinin möhkəmləndirilməsində fəal iştirak edən insanlar məhz müəllim əməyinin yetirmələridir. Ümummilli liderimiz Heydər Əliyev həmişə müəllim əməyini yüksək qiymətləndirirdi, müqəddəs peşənin sahiblərindən ürəkdolusu danışırdı. O, öz müəllimini minnətdarlıqla xatırlayardı: "Müəllim vəzifəsi ona görə şərəflidir ki, cəmiyyət üçün ən dəyərli, bilikli, zəkalı, tərbiyəli vətəndaşlar hazırlayır". Müəllimlərimiz hər birimiz üçün doğma və əzizdir. Çünki onlar bizə təhsil verir, dərs öyrədir, yol göstərir, daim qayğımıza qalırlar. Bu səbəbdən müəllimlərimizi böyük ehtiram və hörmətlə xatırlayır, öyrəndiklərimizə görə həmişə onlara minnətdarlıq edirik. Məktəbimizdə çalışan bütün müəllimlər öz ixtisasını kursantlara öyrətməklə yanaşı, ilk növbədə, onları Vətənini sevən, xalqına və dövlətçiliyinə bağlı vətəndaş kimi formalaşdırırlar.



Daha sonra tədbirdə çıxış edənlər "Beynəlxalq Müəllimlər Günü"nün yaranma tarixindən, ölkəmizdə müəllimlərə münasibətdən, onlara göstərilən dövlət qayğısından ətraflı danışdılar. Həmçinin tədbir iştirakçılarının diqqətinə çatdırıldı ki, 5 Oktyabr - Beynəlxalq Müəllimlər Günü ümummilli lider Heydər Əliyevin Sərəncamına əsasən bayram kimi qeyd olunur.

Sonra "Beynəlxalq Müəllimlər Günü" münasibətilə təhsilin inkişafında peşə borcunu şərəflə, layiqincə yerinə yetirdiklərinə görə bir qrup professor-müəllim heyəti rəhbərlik adından fəxri fərman və qiymətli hədiyyələrlə təltif olundu.

Tədbir Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivi tərəfindən hazırlanmış xüsusi konsert proqramı ilə başa çatdı.

* * *

Cəmşid Naxçıvanski adına Hərbi Liseydə də “Beynəlxalq Müəllimlər Günü” təntənəli şəkildə qeyd olundu.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə Hərbi liseyin şəxsi heyəti və ictimaiyyət nümayəndələri iştirak etdilər.

Tədbiri Hərbi liseyin rəisi general-mayor Bəkir Orucov açaraq əlamətdar gün münasibətilə müəllimləri təbrik etdi. Bildirdi ki, ümummilli liderimiz Heydər Əliyev həmişə müəllim əməyini yüksək qiymətləndirib, öz müəllimlərini minnətdarlıqla xatırlayıb. Ulu Öndər ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə müəllimə hörmət və ehtiramla yanaşıb, pedaqoji sahəyə diqqət göstərib. Ümummilli Liderimiz deyirdi: "Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə, səbrlə bizə öyrətmiş və öyrədir. Hər birimizin öz müəllimi vardır və biz bütün ömrümüz boyu onun xatirəsini hörmətlə, minnətdarlıqla qəlbimizdə yaşadırıq".

Polkovnik-leytenant Fuad Ələkbərov Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müavini, Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin rəisi general-leytenant Nizam Osmanovun təbrikini və əmrini oxudu.

Cəmşid Naxçıvanski adına Hərbi Liseyin müəllimi Sevil Qurbanova hərbi təhsilə olan qayğıdan danışdı, dövlətin sosial siyasətində müəllimlərin mühüm yer tutduğunu vurğuladı.

Tədbirdə bir qrup müəllim fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırıldı.

Polkovnik-leytenant Müslüm Nəsirov, mayor İlkin Qayıbov, leytenant Günel Dadaşova, kursantlar Əli Süleymanzadə və Seyfəddin Orucov çıxış edərək müəllimlərin dünyada ən çətin, eyni zamanda, şərəfli və gözəl peşə sahibləri olmasından danışdılar, ömürlərinin sonuna kimi müəllimlərini ehtiramla xatırlayacaqlarını vurğuladılar.

Tədbir Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin, respublikanın tanınmış incəsənət nümayəndələrinin maraqlı konsert proqramı və "Səma" rəqs qrupunun rəqsləri ilə başa çatdı.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# Raket və artilleriya bölmələri döyüş atışları icra edib



*Müdafiə nazirinin təsdiq etdiyi 2019-cu ilin döyüş hazırlığı planına uyğun olaraq Raket və Artilleriya Qoşunlarının cəbhəboyu zonada yerləşən bölmələri iriçaplı yaylım atəşli reaktiv sistemlərdən (YARS) praktiki atışlar icra ediblər.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, eyni zamanda, səhra şəraitində müvafiq bölmələrin zabitləri ilə "Taktiki təlimlərin hazırlanması və keçirilməsi qaydaları" mövzusunda toplanış təşkil olunub.



Raket bölmələri şərti düşmənin müdafiəsinin dərinliyində yerləşən hədəflərə zərbələr endirməklə qarşıya qoyulan məqsədlərə nail olublar.

## Ermənistanda "Əliyevin Paşinyana tutarlı cavabı" sərlövhəli məqalə dərc etdirən jurnalist təqib olunur

Ermənistanda "Əliyevin Paşinyana tutarlı cavabı" sərlövhəli məqaləni dərc etdirən "Aeli" ("Ayna") saytının baş redaktoru Anjela Tovmasyanın ofisinə basqın olub.

Bu yaxınlarda baş nazir Nikol Paşinyanın tərəfdarlarının parlamentdə istefasına səs verdikləri Konstitusiya Məhkəməsinin sədri Qrayr Tovmasyanın jurnalist bacısı Anjela Tovmasyan hökumətdən bu məqaləyə və qardaşının mövqeyinə görə təqiblərə son qoyulmasını tələb edib. O əlavə edib ki, baş nazirin tərəfdarlarının onu "Qarabağ əleyhinə" fəaliyyətdə ittiham etmələri də gülüncdür. Jurnalist qadının ofisinə basqın edənlər məqaləni dərc etmiş Hayeli.am qəzetinin də bağlanılmasını tələb ediblər.

AZƏRTAC erməni KİV-nə istinadla xəbər verir ki, "Aeli" ("Ayna") saytının baş redaktoru və eyniadlı mətbuat klubunun rəhbəri olan Anjela Tovmasyan jurnalistlərə özünün Yerevanın mərkəzindəki ofisinə basqın təşkil edildiyini və bu insidentin onu və qardaşını qorxutmaq məqsədi daşıdığını bildirib. O qeyd edib ki, hakimiyyətin öyrətdiyi dörd nəfər binanın şüşələrinə yumurta atıb və divarlara plakatlar yapışdırıblar. Bu iyrənc hərəkətləri həmin binada yerləşən "Qraparak" qəzetinin müxbiri videoya çəkib.

Jurnalist qadın deyib ki, ofisə basqın edilməsi onun jurnalist fəaliyyəti və qardaşının hakimiyyətin qanunsuz qərarlarına etiraz etməsi ilə əlaqədardır. Onun sözlərinə görə, Paşinyanın tərəfdarları bir neçə dəfə onun ailəsinə və özünə xəbərdarlıq mesajları göndəriblər. A.Tovmasyan insidenti törədənlərin cəzalandırılmasını tələb edib.

Xatırladaq ki, Paşinyanın "Mənim addımım" parlament fraksiyası Konstitusiya Məhkəməsi sədrinin səlahiyyətlərinə xitam verilməsi barədə səsvermə keçirib və qərarı təsdiq edilməsi üçün məhkəmənin üzvlərinə göndərib.

# Hərbi hissədə maarifləndirmə tədbiri keçirildi

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2019-cu il üçün fəaliyyət planına əsasən, "N" hərbi hissəsində şəxsi heyətin maarifləndirilməsi istiqamətində tədbir keçirildi.*

Müdafiə Nazirliyi və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə ön xətt bölmələrində, hərbi hissələrdə, xüsusi təyinatlı təhsil müəssisələrində respublikamızda ailə siyasətinin həyata keçirilməsi Azərbaycan ailəsinə xas milli-mənəvi dəyərlərin təbliği, gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması məsələləri müzakirə olundu.



Müdafiə Nazirliyinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin nümayəndələrinin, millət vəkilinin, "N" hərbi hissəsinin əsgər və zabit heyətinin iştirakıyla keçirilən tədbir xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başladı. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Hərbi hissənin zabiti Ramin Əliyev qonaqları salamlayaraq dedi:

"Azərbaycan xalqı Vətənini sevməyi doğulub boya-başa çatdığı ailəsində öyrənir. Analarımızın övladləri milli qeyrət və vətənpərvərlik ruhunda tərbiyə etməsinin bəhrəsi Milli Qəhrəmanlarımızın, şəhidlərimizin timsalında açıq görünür. Bizim üçün Ana, Vətən kəlmələri müqəddəsdir. Milli Qəhrəmanlarımız Mübariz İbrahimov, Murad Mirzəyev, Samid İmanov kimi Azərbaycan oğullarının yazdığı döyüş salnaməsi milli ruhumuzun, Ana Vətən sevgimizin ən yüksək zirvədə dayandığını bir daha nümayiş etdirir. Biz hərbi qulluqçular üçün Ailə və Vətən anlayışı vəhdət təşkil edir. Hər birimiz "Ana Vətən" kəlməsini qürurla səsləndiririk. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində ordumuzun döyüş qabiliyyəti gündən-günə artır. Biz hərbi qulluqçular ölkə rəhbərliyinin diqqət və qayğısını hər zaman hiss edirik. Hamımız Ali Baş Komandanın döyüş əmrinə hər an hazırıq".

Millət vəkili Məlahət İbrahimqızı belə maarifləndirmə tədbirlərinin ordumuzda mütəmadi keçirilməsinin əhəmiyyətindən danışdı: "Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Müdafiə Nazirliyi ilə birgə həyata keçirdiyi maarifləndirmə tədbirləri prioritet məsələdir. Bu gün Azərbaycan Ordusunun əsgər və zabitlərində böyük ruh yüksəkliyi, döyüş əzmi var. Onların vətənpərvərlik hissləri sarsılmazdır, möhkəmdir. Xalqımız Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında sıx birləşib".

Millət vəkili ölkəmizin rəhbəri Prezident cənab İlham Əliyevin bu günlərdə Soçidəki qətiyyətli çıxışını xatırlayaraq qeyd etdi ki, Ali Baş Komandanın çıxışı xalqımızda sarsılmaz ruh yüksəkliyi yaradıb.

Tədbir Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyevanın geniş və ətraflı məruzəsi ilə davam etdi. O, bildirdi ki, Müdafiə Nazirliyi ilə birgə əməkdaşlıq çərçivəsində hərbi hissələrdə mütəmadi görüşlər keçirilir, müzakirələr aparılır. "Azərbaycan Ordusu gündən-günə güclənir, daha da müasirləşir. İstər maddi-texniki təchizatın təkmilləşdirilməsi, istər şəxsi heyətin nizam-intizamı, istərsə də hərbi qulluqçuların sosial təminatının gücləndirilməsi baxımından Silahlı Qüvvələrimiz dünyanın ən güclü orduları sırasındadır".

Dövlət Komitəsinin sədr müavini Azərbaycanın bir dövlət olaraq gücünə, ordusunun müdafiə qüdrətinə, haqlı mövqeyinə, tarixinə, ənənələrinə əsaslandığını vurğuladı."Bugünkü reallığa baxdıqda şahidi oluruq ki, insan kapitalını lazımi səviyyədə toplayıb lazımi istiqamətə yönəldən cəmiyyətlər uğur əldə edirlər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasət və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın reallaşdırdığı tədbirlər nəticəsində ailələrin sosial müdafiəsi daha da gücləndirilib, çox ciddi və inqilabi islahatlar əsasında, xüsusilə həssas təbəqədən olan ailələrin, gənclərimizin rifah halı daha da yaxşılaşıb. Bu gün gənclərimizi müasir dövrə uyğun əsl vətəndaş kimi formalaşdırmaq, geniş dünyagörüşlü, milli-mənəvi dəyərlərə əsaslanan, ölkəsini, torpağını sevən vətənpərvər kimi cəmiyyətə təqdim etmək sağlam və etibarlı gələcəyimiz üçün əsas faktorlardandır".

Müdafiə Nazirliyinin Qadınlar və Hərbi Qulluqçuların Ailələri üzrə iş şöbəsinin müdiri Zümrüd Səmədova dövlətimizin Azərbaycan Ordusunun şəxsi heyətinə, hər bir hərbi qulluqçunun ailəsinə göstərdiyi diqqət və qayğıdan, onların sosial şəraitinin yaxşılaşdırılması istiqamətində atılan uğurlu addımlardan danışdı.

Dialoq şəklində davam edən tədbirdə zabit və əsgərlərin fikirləri dinlənildi, onları maraqlandıran suallar cavablandırıldı.

Sonda hərbi hissənin zabiti Ədalət Hacıyev qonaqlara minnətdarlığını ifadə edərək, onlara üzərində Azərbaycan Respublikasının dövlət rəmzləri əks olunan hədiyyələr təqdim etdi.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

*Gənc əsgərlərin hazırlığı*

# "Vətən, sənin əsgərinəm!"

*Gənc əsgərlərin hazırlıq keçdikləri "N" hərbi hissəsində hərtərəfli şəraitin şahidi olduq. Xidmətdə ilk addımlarını atan gənclər hərbi hissədə heç bir çətinlik çəkmədən təlim kursunu uğurla başa vurur, bacarıqlı əsgərlər kimi xidməti yerlərinə yollanırlar. Yaxın günlərdə səngərlərdə xidmətə başlayacaq gənc əsgərlərimizlə həmsöhbət olub düşüncələrini öyrəndik. Xalqımıza Böyük Qələbə sevincini yaşadacaq əsgərlərin fikirlərini oxucularla bölüşürük:*



**Əsgər Famil Aslanov:**

- Orduya gəldiyimiz ilk günlərdən peşəkar komandirlərin diqqət və qayğısı ilə əhatə olunmuşuq. Onlar hər addımda çalışır ki, biz tez bir vaxtda hərbi xidmətin sirlərinə yiyələnək. Bundan ötrü müntəzəm olaraq dərslər və məşğələlər keçirilir. İndi hərbi xidmətin ilk dövrü ilə müqayisədə özümü bilikli, bacarıqlı hiss edirəm. Həm fiziki, həm də psixoloji baxımdan hərbi xidmətimi yerinə yetirməyə tam hazıram. Hazırlıq dövrümüzü uğurla başa vurub döyüş postuna gedəcəyim günü intizarla gözləyirəm. Əsgər üçün ən müqəddəs xidmət yeri səngərdir. Mən də səngərdə xidmət etmək istəyirəm. Onun üçün keçirilən təlimlərə məsuliyyətlə yanaşır, verilən tapşırıqları sözsüz və vaxtında yerinə yetirirəm. Vətən artıq bizlərə əmanətdir, torpaqlarımızın keşiyində inamla dayanan, müqəddəs vəzifələrimizin öhdəsindən layiqincə gəlməyə qadir əsgərlər kimi formalaşmışıq. Təlim müddətində bizə məşğələlərdə döyüş hazırlığından, taktiki hazırlıqdan, atəş hazırlığından dərslər keçirilib. Bu dərslərdə öyrədilən bilikləri yaxşı mənimsədik. Təbii ki, bunların hamısını bizlərə öyrədən savadlı və bacarıqlı komandirlərimizdi. Hər birinə minnətdarlığımı bildirirəm ki, bizə hərbi sirləri səylə öyrədib, üstün mənəvi keyfiyyətlər aşılayıblar.



**Əsgər Hilal Cəfərzadə:**

- Hər birimiz dərslərdə fəal iştirak edərək, vəzifə borclarımızı, silahların təyinatını və istifadə qaydalarını, döyüş hazırlığını və digər hərbi bilikləri dərindən öyrəndik. Azərbaycan Ordusuna layiqli əsgər olmaq üçün bundan sonrakı xidmətimizdə də məsuliyyətli olub, bizə tapşırılan vəzifələrin öhdəsindən layiqincə gəlməyi özümüzə borc bilirik. Təlim müddətində öyrəndiyimiz bilik və bacarıqların gələcək xidmətimizdə bizə böyük köməyi olacaq. İndi bizim üzərimizə düşən əsas vəzifə təyin olduğumuz bölmələrdə layiqli xidmət edərək mövqelərimizi göz bəbəyi kimi qorumaqdır. Əsgəri xidmət, həqiqətən də, hər bir gəncin həyatında önəmli yerə malikdir. Əsgər olmaq uşaqlıqdan arzumuz olub. Biz artıq bu arzunun sevincini yaşayırıq. İstəyirəm ki, gənc əsgər hazırlığı müddəti bitdikdən sonra mən də xidmətimi səngərdə davam etdirim.

**Əsgər Həsənağa Qarayev:**

- Hamı kimi mən də gənc əsgər hazırlığı dövrünü uğurla başa vurduğum üçün sevinirəm. Həm də bir az həyəcanlıyam. Çünki qarşıda bizi daha məsuliyyətli vəzifələr gözləyir. Mənim də arzum səngərdə dayanmaqdır və buna tam hazıram. Bu müqəddəs vəzifədən əsgər dostlarım kimi mən də qürurlanıram. Təlim müddətinə gəldikdə isə burada çox şey öyrəndik. Həm nəzəri, həm əməli olaraq hərbi biliklərə, həm də döyüş texnikalarının sirlərinə yiyələndik. Silahdan atəş açmağı öyrəndik. Ordumuzun güc və qüdrətinin canlı şahidi olduq. Mən bir əsgər kimi xalqımıza əminliklə deyə bilərəm ki, biz düşməndən qat-qat güclüyük, onu məhv etməyə hər an hazırıq və qadirik. Əsgər kimi arzum odur ki, Qarabağa bayrağımızı sancanların sırasında olum.

Yaradılan şəraitdən və göstərilən qayğıdan hər birimiz razıyıq. Gənc əsgər xidməti dövründə hərbi hissədə daha gözəl şəraitin şahidi oldum. Yaradılan yüksək şəraitə, göstərilən diqqət və qayğıya görə Ali Baş Komandanımıza, Müdafiə nazirimizə və bütün komandirlərimizə minnətdarlıq edirik. Söz veririk ki, Hərbi anda sadiq olacaq, torpaqlarımızın azadlığı uğrunda döyüşdə son damla qanımıza qədər şücaətlə vuruşacağıq.

**Əsgər Sevər Salmanov:**

- Xidmətə gələn gündən hər birimizə doğma münasibət bəslənib. Ona görə də hərbi xidmətə uyğunlaşmağımız çətin olmadı. Bir neçə gün sonra artıq özümü neçə illərdir burada xidmət keçən biri kimi hiss edirdim. Hərbi hissənin şəraitinə söz ola bilməz. Biz də keçirilən dərslərdə fəal iştirak edib, vəzifə borclarımızı, silahların təyinatını və istifadə qaydalarını və digər hərbi bilikləri öyrəndik. Bundan sonrakı xidmətimizdə də Azərbaycan Ordusuna layiqli əsgər olmaq üçün əlimizdən gələni edəcəyik. Vətənimizin keşiyində inamla dayanacaq, düşmənə layiqli cavab verəcəyik.

**Əsgər Elgün Həsənov:**

- Gənc əsgər hazırlığımız artıq başa çatmaq üzrədir. Bu müddət ərzində gözəl duyğular yaşadıq, qürur hissləri keçirdik. Hərbi formanı geyinib sırada dayandıq, avtomatdan atəş açdıq. Həyəcanlı, sevincli və yaddaqalan günlər idi. Komandirimiz sıranın müqəddəs olduğundan, nizam-intizamın sıradan başlandığından danışırdı. Hələ silahdan ilk dəfə atəş açanda, hədəfi dəqiq vuranda necə sevinmişdim. Bu günlər xidmətimin ən unudulmaz günləri kimi xatirəmdən heç zaman silinməyəcək. Bu gün ön xətdə xidmətimi davam etdirməyə tam hazıram. Çünki artıq təcrübəli əsgərəm və Vətənimizin müdafiəsində inamla dayanacaq, işğalda olan torpaqlarımızın azadlığı uğrunda döyüşə atılmağa daim hazır olacam.

**Əsgər Nurxan Həsənov:**

- Ordu sıralarına gəldiyim ilk gündən nümunəvi xidmət etməyə söz vermişəm. Çünki əsgəri xidmət hər birimizin Vətən qarşısında övladlıq borcudur. Bu borcun öhdəsindən isə layiqincə gəlməliyik. Hər zaman hərbi xidmətə çağırılacağım günün intizarında olmuşam. O günü həvəslə gözləmişəm. Hərbi hissədə komandirlərimizin doğma münasibətini, yaradılan şəraiti görəndə xidmətə sevgim daha da artdı. Gənc əsgər hazırlığı dövrünü mən də xoş xatirələrlə başa vururam. Ayrı-ayrı bölmələrdə xidmətimizi davam etdirmək üçün burada qazandığım dostlarımdan ayrılacağıma görə üzülürəm. Amma inanıram ki, növbəti xidmət yerində yeni dostlarım, silahdaşlarım olacaq. Hazırlıq dövrü mənə də çox şeylər qazandırdı. Ən əsası hərbi xidmətin mahiyyətini, bir gənc üçün nə qədər vacib olduğunu anlatdı. Hərbi xidmət bizim üçün həyat məktəbidir. Burada mərdliyi, qorxmazlığı, yoldaşlığa sadiq qalmağı, ən çətin anda belə dostunu tərk etməməyi öyrənirsən. Çətinliyə dözməyi, müxtəlif şəraitlərə uyğunlaşmağı mənimsəyirsən. Bu müddət ərzində düşmənlərimizi daha yaxından tanıdıq. Bunlarla yanaşı, hərbi texnikaları, silahları öyrəndik, dünyagörüşümüzü artırdıq. Bizi qarşıda daha məsuliyyətli xidmət günləri gözləyir. Xidmətimin sonuna qədər şanlı ordumuzun adına layiqli xidmət edəcək, daim nümunəvi xidmətə görə fərqlənənlərin sıralarında olmağa çalışacam. Bu, mənim daxili istəyim, Vətənimə, dövlətimə olan sonsuz sevgimdir. Vətənə sevgimdən ilham alıb, düşmən qarşısında qətiyyətlə dayanacam.

**Əsgər Turqut Məmmədov:**

- Vətənini sevən bir gənc kimi mən də torpaqlarımızın işğal altında olduğu şəraitdə hərbi xidmət keçməyin vacibliyini yaxşı dərk edirəm. Hərbi xidmətə qələbə qazanmaq arzusu ilə gəlmişəm. Ordumuzun Aprel və Günnüt döyüşlərində düşmən üzərində inamlı qələbə qazanması biz gənclərdə ruh yüksəkliyi yaratdı. Hərbi xidmətə bir amalla gəldik - nümunəvi xidmət edəcək, yüksək döyüş hazırlıqlı əsgərlər kimi formalaşıb, bu qələbələrin davamını gətirəcəyik. Artıq xidmətin ilkin mərhələsini başa vururuq. Bu mərhələdə bizi vətənpərvər əsgərlər kimi formalaşdıran, silahlardan istifadə etməyi, nizam-intizamlı olmağı öyrədən komandirlərimə hər zaman minnətdar olacağam. Öz nümunəvi xidmətimlə onları daim sevindirəcəm. Bütün əsgər dostlarımın adından deyə bilərəm ki, bizim ən birinci və vacib borcumuz hərbi xidmət keçmək, bacarıqlı və cəsur əsgər olmaq, torpaqlarımızı düşmən işğalından azad etməyə hər an hazır olan döyüşçülər olmaqdır. Bundan sonrakı xidmətimi döyüş postunda davam etdirməyin arzusundayam. Düşmənlə üz-üzə dayanıb, Vətəni qorumaq şərəfinə nail olmaq istəyirəm. Çünki mən əsgəri xidmətə gələrkən qəhrəmanların döyüş yolunu özümə örnək seçmişəm. Mübarizləşmək, Samidləşmək, Çingizləşmək arzusu ilə xidmət etməyi, torpaqlarımızı qorumağı özümə mənəvi borc bilirəm.



Gənc əsgərlərin sözlərindən, düşüncələrindən bu fikirlər duyulurdu: "Vətən, sənin əsgərinəm!"

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Coşqun CƏFƏROVUNDUR**

Ön xətdə disput

# “Nağıl qəhrəmanlarım, gerçək qəhrəmanlarım”

*Bu payız səhərində ön xətdə həmişə düşüncələrim düşüncələrinə tamsınan əsgərlərimizlə "Nağıl qəhrəmanlarım, gerçək qəhrəmanlarım" mövzusunda kəlmələşməyə tələsirəm. "Azərbaycan Ordusu" qəzetinin təşəbbüsüylə disput olacaq. Zabitlər də fikir səsləndirəcək, gizirlər də, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçular da, əsgərlər də. Bir azdan bir fikir digərini təsdiqləyəcək, bir fikir digərini inkar edəcək - mövzu fikir-fikir çözüləcək. Nəticə etibarilə "Nağıl qəhrəmanlarım, gerçək qəhrəmanlarım" mövzusunun fəlsəfəsi bir hərbi hissənin şəxsi heyətini təmsil edən hərbi qulluqçuların timsalında ümumiləşdiriləcək; belə mövzulara, belə ümumiləşdirmələrə son yoxdu...*

Disputa giriş kimi deyirəm ki, uşaqlığımızda nağılları hamımız sevmişik, fəlsəfənin nə olduğunu bilmədən nağılların fəlsəfəsinə vurulmuşuq, dinləmişik, oxumuşuq, nağıl-nağıl durulmuşuq. Nağılların cazibəsində yeniyetmələşmişik, cavanlaşmışıq; yeniyetmələr cavanlaşıb, cavanlar yaşlaşıb, yaşa dolub, illər keçib, nağıllarla yaşıd olub. Nağıl qəhrəmanlarımız isə həmişə qəhrəmanlıq yaşında qalıb.



Zabit Rauf İbrahimov deyir:

- Zamanında nağılları, nağıl qəhrəmanlarını biz də sevmişik. Uşaqlığımızda nənəmizin dizinə baş qoyardıq ki, bizə nağıl danışsın.

- Müharibə səbəbindən uşaqlar uşaqlıq dünyasından çox tez ayrılırlar. İllərdi uşaqlar nağıl qəhrəmanlarını - Məlikməmmədi, Dərzi şagirdi Əhmədi, Ağ atlı oğlanı,... sonacan tanıyıb sevməyə macal tapmamış gerçək qəhrəmanları - Əlifi, Tofiqi, Vəziri, Etibarı, Rasimi, Raqufu, Mübarizi, ... , Çingizi tanıyıblar, həm də mənəvi borcödəmə kimi tanıyıblar, - deyirəm.

Əsgər Cahid Quliyev bu fikrə qüvvət kimi deyir:

- Uşaqlığımızdan düz-əməlli üzülməmiş müharibənin nə olduğunu ata söhbətlərindən, oxuduqlarımızdan, televiziyada gördüklərimizdən sonra dərk etmişik. Onu da dərk etmişik ki, müharibə həm də qəhrəmanlıqdır.

Əsgər Hüseyn Vəliyev söhbətə qoşulur, həm də arzuladığımız bir mətləbdən söz açmaqla:

- Bunları dərk etdiyimizə görə daha nağıl qəhrəmanlarını deyil, gerçək qəhrəmanları - Ermənistanın elan etmədən başladığı müharibənin qəhrəmanlarını sevdik.

Əsgər Fərid Qənbərov səbirsizliklə əsgər yoldaşının dediklərini tamamlayır:

- ...Bu qəhrəmanların qəhrəmanlığının mahiyyətini dərk etdik, onu ömrümüzə köçürdük. Qəhrəmanlarımızın qəhrəmanlığının davamçısı olmaq niyyətiylə köçürdük.

Bayaq dediklərini Hüseyn belə tamamlayır:

- Onu da dərk etdik ki, uşaqlığımızda sevdiyimiz qəhrəmanlar bizə qəhrəmanlığın mahiyyətini öyrədirmiş, qəhrəmanlığı başqa zamanda başqa formada təkrarlamağa hazırlayırmış.

Zabit Rauf İbrahimovun müdaxiləsi səngərdə könül xoşluğuna dönür:

- Xalq naminə, millət naminə, dövlət, dövlətçilik naminə hazırlayırmış. Əsgərlərə xitabən deyirəm ki, eşitdiyiniz fikirləri müxtəlif ünvanlarda, müxtəlif formalarda, ancaq eyni duyğularla hər biriniz yaşayıbsınız. Uşaqlıqdan yeniyetməliyə, yeniyetməlikdən çağırış yaşına da gerçək qəhrəmanlara sevgilərlə çatıbsınız.

- Azərbaycan əsgərinin, zabitinin necə döyüşdüyündən, hər döyüşü qələbəylə başa çatdırmaq istəyindən, bu istəyə görə şəhidliyə də hazır olduğundan çox eşitmişik, eşitdiklərimiz sevgiyə dönüb sevgiləşib, bu sevgiylə ayları il eləmişik. Hərbi xidmətə bu düşüncələrlə...

- ...dünyagörüşlə, - kimsə sözə qüvvət kimi deyir...

- Bəli, hərbi xidmətə hamımız bu düşüncələrlə, bu dünyagörüşlə gəlmişik. O qəhrəmanların davamçıları olmağa da and içmişik. Andımıza sədaqətlə xidmət edirik...

Zabit Rauf İbrahimov ürəyimizi dağa döndərən bir fikir deyir:

- Bizim hərbi hissənin şəxsi heyətinin timsalında ordumuz qəzetinizdə dərc edilmiş bir məqalədə deyildiyi kimi, səngərləri sərhədlərə köçürmək amalıyla xidmət edir. Bu amal Ali Baş Komandanın döyüş əmriylə gerçəkləşəcək.

Yəni, gerçək qəhrəmanlarımızın qəhrəmanlığı Böyük Qələbəylə tamamlanacaq döyüşlərdə başqa formada təkrarlanacaq. Yəni, Azərbaycan əsgəri sevdiyi qəhrəmanların mənəvi varisi olacaq. Yəni, gerçək qəhrəmanları tanıma, tanıyıb da sevmə hərbi xidmətdə mənəvi-psixoloji hazırlıq baxımından onların mübarizliyini döyüş əzmi səviyyəsinə, döyüş əzmini qələbə ruhu həddinə çatdırıb. Bu əzm, bu ruh 2016-cı ilin Aprel döyüşləri kimi tarixləşdi, qəhrəmanların Vətən sevgisiylə yazdığı tarix oldu. Bu sevgi yaxın vaxtlarda Böyük Qələbəni də tarixləşdirəcək...

Əsgər Cahid Quliyevin sualı həm disputun mövzusunun tezisi kimi səslənir, həm də düşüncələri mövzunun dərkinə istiqamətləndirmə təsirindədi:

- Dediyiniz mübarizlik ancaq nağılların fəlsəfəsiyləmi bağlıdır? Mənə belə gəlir ki, döyüş və mənəvi-psixoloji hazırlığın səviyyəsi də mübarizliyi şərtləndirən amillərdəndir.

Gözlənilmədən səsləndirilən bu məzmunlu sual da, sualın davamı kimi səslənən, əslində, suala cavabın konturlarından biri olan kəlmələr də düşündürücüdür.

Zabitin nümunəvi əsgər kimi təqdim etdiyi əsgərin könlümcə olan gözlənilməz sualına cavab olaraq deyirəm ki, yox, mübarizlik ancaq nağılların fəlsəfəsiylə bağlı deyil. Mübarizlik ifadəsi vətənsevərliklə bağlı olan mənəvi təkamül prosesidir və bu prosesdə dünyaduyumunun, təhsilin, mütaliənin,... də böyük əhəmiyyəti var. Min illər əvvəldən - formalaşma dövründən üzü bəri xalqımızın milli-mənəvi xarakterini şərtləndirən simvollarından biri də mübarizlik olub. Mübarizlik təyinindən ayrılan Mübariz adını həm də Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun adı olaraq bu mövzuda deyilənləri işıqlandıran, deyiləcəkləri işıqlandıracaq işıq bilirik. - Mübariz İbrahimovun qəhrəmanlığı Mübarizləşmə təyini yaratdı, mübarizləşmə ifadəsinə yeni çalar verdi, Mübarizləşmə təyini də, mübarizləşmə ifadəsinin yeni çalarları da Azərbaycan əsgərinin hərbi xidmət amalına hopdu...

Zabit Rauf İbrahimov deyir ki, Mübarizləşmək də, mübarizləşmək də bizim hərbi hissənin əsgərlərinin timsalında ordumuzun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığının tərkib hissələrindəndir.

Zabitin dedikləri hamımıza könül xoşluğu verir. Əsgərlərə xitabən deyirəm:

- Mübariz İbrahimovun qəhrəmanlığı tarixə görk qəhrəmanlıq olduğu üçün sizin də qəhrəmanınızdı, çağırışçıların da, yeniyetmələrin də. Nağıl qəhrəmanlarının qəhrəmanlığı nağıl dünyası yaratmışdı, gerçək qəhrəmanların qəhrəmanlığı gerçək tarix yaradır.

- Biz gerçək tarix yaratmış, yaradan qəhrəmanların mənəvi qardaşı, mənəvi davamçısı olacağıq, - əsgər Həsən Bayramov belə deyir.

Bu, 2016-cı ilin Aprel döyüşlərində Azərbaycan əsgərinin döyüş əzminin, qələbə ruhunun dönməzliyini təsdiqlədi.

Üç aylıq xidmət yolu keçmiş əsgər Emil Qurbanov deyir:

- Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovla eyni universitetin məzunu olmağımla da qürur duyuram. Mənə və ümumən bütün tələbələrə elə gəlirdi ki, auditoriyalarda Çingizin səsini eşidirik: Vətəni daha dərin sevgilərlə sevin! Bu səsi təkcə Çingizin deyil, qəhrəmanlığın səsi bilirdik.

- Bu qayibanə səs şəhidliyin - müqəddəsliyin səsidi, Azərbaycan gəncliyinin, azərbaycanlı qəhrəmanların Azərbaycan əsgərinə qardaş, xələf tövsiyəsidi, - deyirəm. - Mübarizlərin, Çingizlərin qəhrəmanlığı yaşarı qəhrəmanlıqdı...

Əsgərlərin düşüncələri də, qəhrəmanlığa, qəhrəmanlara ehtiramı da qəlbəyatımlıdı, həm də arzulanan səviyyədə qəlbəyatımlıdı. Əsgər Rəşad Bayramov deyir ki, Mübariz İbrahimovun qəhrəmanlığı bütün yeniyetmələr kimi mənim də ürəyimi dağa döndərdi. Hamımız bu qəhrəmanlığın mahiyyətini yaxşı dərk edirik. Biz Hərbi anda, dövlətə, dövlətçiliyə sədaqətlə xidmət etməklə qəhrəmanlarımızın amalını gerçəkləşdirəcəyik, Ali Baş Komandanın döyüş əmrini qələbəylə tamamlayacağıq.

Əsgər hansı duyumun təsiriylə sə səngərin o tərəfinə baxır, alnını ovuşdurub sözünə davam edir:

- Torpaqlarımızı işğaldan azad edəcəyik. Böyük Qələbə şəhid qəhrəmanlarımızın ruhuna gözaydınlığı olacaq...

Əsgər Tamerlan Əhmədov Vəzir Orucovun qəhrəmanlığından danışır...

Əsgər Yusif Rəhimov Mübariz İbrahimovun qəhrəmanlığından danışır...

Əsgərlər Etibar Hüseynovun, Rasim İbrahimovun, Yusif Mirzəyevin,... qəhrəmanlığından danışırlar...

Əsgər Fərid Qənbərov adı-soyadı bizə məlum olmayan qəhrəmanlardan danışır:

- ...26 fevral gecəsi ermənilər atışa-atışa ağ qarda, göy buzda xocalıları təhlükəsiz yerə çıxartmaq istəyən qəhrəmanlar da olub. Çoxunun adını, soyadını bilmirik. O naməlum qəhrəmanlar da bizim gerçək qəhrəmanlarımızdı, ruhumuzun qəhrəmanlarıdı...

Əsgər Yusif Rəhimov hamımızı duyğulandıran bir məqamdan söz açır:

- Valideynlərim kəlbəcərlidi. İllərdi Kəlbəcərsizlik ağrıları yaşayırlar. Mən Kəlbəcəri görməsəm də, xəyallarımda bir Kəlbəcər var, ata-anamın Kəlbəcərini xəyalımda yaşadıram. Ali Baş Komandanın döyüş əmriylə üzünü görmədiyim Kəlbəcəri də işğaldan azad edəcəyik. Qəhrəmanlarımızın davamçıları olacaq bu əsgərlər azad edəcək. Onların sırasında mən də olacam.

Bir anlığa susur. Naməlumluğa baxır. Mənə elə gəlir ki, Murovun üstündən Kəlbəcərə sarı boylanır:

- Hərbi xidmətə gələndə atam mənə ancaq uğurlu xidmət arzuladı. Nələr deməliydisə, hamısını illərlə demişdi. "Qəhrəmanlarımızı tanı", - deyirdi, tanıyırdım. "Qəhrəmanlarımızı sev", - sevirdim. Atam bunları yazdığı şeirlərində də deyir. Atam bizim üçün "Mənim gerçək qəhrəmanlarım" şeirini də yazacaq...

...Disput başa çatır.

Deyilən fikirləri ayrılıqda da, vəhdətdə də gerçək qəhrəmanlığın fəlsəfəsi bilirəm. Zabitlər qənaətimi dəstəkləyir. Əsgərlərin baxışlarında məmnunluq görünür. Gerçək qəhrəmanları ruhunda yaşadan əsgərlərə deyirəm ki, Azərbaycan Ordusu Ali Baş Komandanın döyüş əmrini qələbəylə tamamlayacaq. Bu, ordumuza güvənən ictimaiyyətin də inamıdı. Yeniyetmələrin, çağırışçıların gerçək qəhrəmanları sizin sıranızdadı..., - deyirəm...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

## Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində döyüş növbətçiliyi aparmaqdan imtina edənlərin sayı artmaqda davam edir.

Ermənistan ordusunun müqaviləli hərbi qulluqçuları Aşot Mxitiryan və Spartak Vartanyan üzləşdikləri haqsızlıq səbəbindən döyüş postuna qalxmaqdan imtina ediblər.

Hadisəni ört-basdır etmək məqsədilə hələlik cinayət işi açılmayıb və hər iki müqaviləli hərbi qulluqçu ilə söhbət aparılıb, problemlərinin həllinə kömək ediləcəyinə söz verilib.

A.Mxitiryan və S.Vartanyanın valideynləri hərbi hissəyə dəvət edilib.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində xidmət yerini özbaşına tərk edənlərin sayı artmaqdadır. Bu günlərdə işğalçı ordunun fərarilik edən daha iki hərbi qulluqçusu cinayət məsuliyyətinə cəlb olunub.

Kəşfiyyat bölüyünün taqım komandiri baş leytenant Qaqik Petrosyan 3 ay ərzində xidmət yerini 3 dəfə və müddətli hərbi qulluqçu Rafik Arşaluys isə 1 ay müddətinə xidmət yerini özbaşına tərk edib.

Hər iki hərbçi barədə cinayət işi başlanılıb. Hərbi qulluqçu R.Arşaluys həbs edilib, baş leytenant Q.Petrosyanın yaxınları isə külli miqdarda rüşvət müqabilində övladlarını həbsdən qurtara biliblər.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində nizamnamədən kənar münasibətlər zəminində daha bir cinayət hadisəsi qeydə alınıb.

İşğalçı ordunun müddətli hərbi qulluqçusu Artur Gevorqyan, hərbi qulluqçu Avetik Barberyana qarşı fiziki güc tətbiq edib. Xidmət yoldaşı tərəfindən döyülən A.Barberyan müalicə məqsədilə hərbi tibb müəssisəsinə yerləşdirilib.

Faktla bağlı hərbi polis tərəfindən araşdırma aparılır.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində qeyri-döyüş şəraitində yaralananların sayı günbəgün artır.

Narek Asatryan adlı hərbi qulluqçu naməlum şəraitdə yaralanıb. Hərbi qulluqçuya ilkin tibbi yardım göstərilib.

Hadisə mətbuatdan və ictimaiyyətdən gizlədilsə də, faktla bağlı cinayət işi başlanılıb. Araşdırma davam edir.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

*İmadəddin Nəsimi - 650*

# Azərbaycan xalqının bəşəriyyətə bəxş etdiyi qüdrətli söz ustası

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin anadan olmasının 650 illik yubileyi münasibətilə 2019-cu ili "Nəsimi ili" elan edərək, şairin yubileyinin dövlət səviyyəsində geniş qeyd edilməsi haqqında fərman imzalayıb.*



"Nəsimi ili" Müdafiə Nazirliyi sistemində də silsilə tədbirlərlə geniş şəkildə qeyd edilir. Oktyabrın 5-də Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində qurumun təşkilatçılığı və İctimai-Siyasi Proseslər Beynəlxalq Araşdırmalar Mərkəzinin tərəfdaşlığı ilə dahi Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr edilmiş "Laməkan şairimiz" adlı ədəbi-bədii tədbir keçirildi. Tədbirdə çıxış edənlər İmadəddin Nəsiminin Azərbaycan xalqının dünya mədəniyyətinə bəxş etdiyi qüdrətli söz ustalarından olduğunu vurğuladılar. Qeyd olundu ki, Nəsimi Şərqin zəngin mədəni-mənəvi sərvətləri üzərində ucalmış və bədii söz sənətinin son dərəcə qiymətli incilərini yaratmışdır. Həmçinin mütəfəkkir şairin dərin poetik fikirlərlə fəlsəfi görüşlərin vəhdətində olub, dövrün elmi-fəlsəfi düşüncəsinin aydın ifadəçisinə çevrilmiş müstəsna əhəmiyyətli ədəbi irsi qədim köklərə və çoxəsrlik ənənələrə malik Azərbaycan ədəbiyyatı tarixində xüsusi mərhələ təşkil etdiyini bildirdilər.



Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi mayor İlkin Qayıbov tədbirdə iştirak edən qonaqları salamlayaraq İmadəddin Nəsimi adının həqiqət naminə, fikir azadlığı yolunda qəhrəmanlığın rəmzi kimi əbədiləşərək, əsrlərdən bəri Şərq xalqlarının yaddaşında yaşadığını bildirdi. "Nəsimi irsinin Azərbaycan xalqının mənəviyyat xəzinəsində layiqli yerini tutması ötən əsrin 70-ci illərində öz geniş fəaliyyəti sayəsində tarixi-mədəni dəyərlərimizə münasibətdə əsaslı dönüş yaratmış ümummilli lider Heydər Əliyevin adı ilə bilavasitə bağlıdır. Məhz Ulu Öndərin təşəbbüsü ilə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən ilk dəfə Nəsiminin 600 illik yubileyi YUNESKO-nun tədbirləri siyahısına daxil edilmiş və beynəlxalq miqyasda qeyd olunmuşdur. Azərbaycan ədəbiyyatı və incəsənətində Nəsiminin yaddaqalan obrazı yaradılmış, Bakının mərkəzində şairin əzəmətli heykəli ucaldılmışdır. Ulu Öndər siyasətinin layiqli davamçısı ölkə başçısı, Ali Baş Komandan cənab İlham Əliyevin 2019-cu ili "Nəsimi ili" elan etməsi ölməz şairin xatirəsinə dərin ehtiramın ifadəsidir. Nəsimi yaradıcılığı bizim milli-mənəvi varlığımızın ayrılmaz tərkib hissəsidir."

İctimai-Siyasi Proseslər Beynəlxalq Araşdırmalar Mərkəzinin sədri Samir Adıgözəlov Nəsimi əsərlərinin dünya poeziyasının ən kamil nümunələri sırasında diqqətəlayiq yer tutduğunu qeyd etdi. "Nəsimi əsərlərində daim insanın əzəmətini, insani məhəbbəti və şəxsiyyətin azadlığını tərənnüm etmişdir. Anadilli şeirin humanist ideyalarla, yeni məzmun, deyim tərzi və bədii lövhələrlə daha da zənginləşməsində unudulmaz şairin misilsiz xidmətləri vardır. Nəsiminin mənbəyini xalq ruhundan almış parlaq üslubu orta əsrlər Azərbaycan dilinin məna imkanlarını bütün dolğunluğu və rəngarəngliyi ilə əks etdirir. Sənətkarın yaradıcılığı bir sıra xalqların bədii-ictimai fikrinin inkişafına qüvvətli təsir göstərmişdir. Belə dəyərli və yaddaqalan tədbiri H.Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin kollektivi ilə birgə keçirməkdən çox şadıq. Tədbirin ərsəyə gəlməsində zəhmət çəkən hər kəsə dərin minnətdarlığımı bildirirəm."

Tədbirdə İmadəddin Nəsimiyə həsr olunmuş film göstərildi. Sabunçu rayon 1 saylı Sağlamlıq İmkanları Məhdud Gənclərin Peşə Reabilitasiya Mərkəzinin gəncləri "Nəsimi və Dərvişlər" adlı tamaşa nümayiş etdirdilər.

3 saylı Xüsusi İnternat Məktəbinin şagirdlərinin Nəsimi yaradıcılığının incilərini tamaşaçılara "işarət dili" ilə çatdırması böyük rəğbət və alqışlarla qarşılandı. Tədbirin sonunda H.Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin ifasında Nəsimi yaradıcıllığına həsr olunmuş mahnılar səsləndirildi.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

# Hərbi qulluqçuların ehtiyata buraxılmasına həsr olunmuş tədbirlər keçirilir



"Azərbaycan Respublikası vətəndaşlarının 2019-cu il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" ölkə Prezidentinin müvafiq sərəncamının icrası ilə bağlı Müdafiə nazirinin əmrinə əsasən, birlik, birləşmə və hissələrdə tədbirlər həyata keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirlərdə xidmət müddətində fərqlənmiş və nailiyyətlər əldə etmiş hərbi qulluqçulara mükafatlar təqdim edilir.



# Xəbərlər:
## hadisələr, faktlar

### Türkiyə Hərbi Hava Qüvvələrinin qırıcıları İraqın şimalındakı PKK düşərgələrinə sarsıdıcı zərbələr endirib




Türkiyə Hərbi Hava Qüvvələrinin qırıcıları İraqın şimalındakı PKK düşərgələrinə dəqiq aviazərbələr endirib.

Türkiyə Milli Müdafiə Nazirliyinin saytı xəbər verir ki, Avaşin, Zap və Gara bölgələrində həyata keçirilən antiterror əməliyyatı nəticəsində 17 terrorçu zərərsizləşdirilib.

Bununla da həftə ərzində məhv edilən terrorçuların sayı 51-ə çatıb.

### Rusiyanın 150 peykindən 90-ı Müdafiə Nazirliyinə xidmət edir



Rusiyanın orbital qrupu 15 kosmik aparatdan ibarətdir və onların üçdəikisi hərbi təyinatlı peyklərdir. Bu barədə "Exo Moskvı" radiostansiyasına müsahibəsində Rusiya Hərbi-Kosmik Qüvvələrinin (xüsusi təyinatlı) 15-ci ordusunun qərargah rəisi Anatoli Nesteçuk məlumat verib.

Rusiya rəsmisi bildirib ki, bu ölkənin kosmosda fəaliyyət göstərən 150 peykindən 90-ı hərbi təyinatlı aparatlardır və Müdafiə Nazirliyinin maraqlarına xidmət edir. Onun sözlərinə görə, digər peyklər federal kosmik proqram çərçivəsində başqa nazirlik və idarələr üçün nəzərdə tutulublar. Nesteçuk əlavə edib ki, hazırda orbitdə naviqasiya, rabitə, geodeziya, meteorologiya, Yerin məsafəli zondlanması, vəziyyətin monitorinqi üzrə aparatlar, habelə elmi təyinatlı müxtəlif peyklər də fəaliyyət göstərirlər.

### Bəhruz Kamalvəndi: İran nüvə tədqiqatlarını davam etdirəcək



İran ABŞ və Avropa dövlətlərini bir il ərzində gözlədi. Lakin nə ABŞ, nə də Avropa dövlətləri saziş üzrə üzərlərinə götürdükləri öhdəliklərə əməl etmədilər.

Bu sözləri İranın Atom Enerjisi üzrə Agentliyinin rəhbəri Bəhruz Kamalvəndi bu gün Tehranda keçirdiyi brifinqdə deyib. O, İranın Ali Rəhbəri Əli Xamneyinin "nüvə heç kimin deyil və heç kim iddia edə bilməz ki, mənim varlığımı və ya əmlakımı alırsan" fikirlərini xatırladaraq bildirib ki, İran kimsənin əlindən nə isə almaq istəyində deyil. İran öz nüvə tədqiqatlarına davam edəcək.

B.Kamalvəndi onu da qeyd edib ki, əgər Avropa və ABŞ 2015-ci ildə İran ilə imzalanan sazişə əməl etməyə başlasalar, onda rəsmi Tehran nüvə tədqiqatlarını dayandıra bilər.

### Son üç gündə Ermənistan ordusunun üç hərbçisi ölüb



Son üç gündə Ermənistan silahlı qüvvələrində bir zabit və müqavilə əsasında xidmət edən iki əsgər ölüb.

Ermənistan Müdafiə Nazirliyinin mətbuat xidməti məlumatı gizlətmək istəsə də, kütləvi informasiya vasitələri hadisələri dəqiqləşdirərək xalqa çatdırıblar.

Ermənistan KİV-ləri xəbər verir ki, oktyabrın 1-də sol çiyin nahiyəsindən ağır güllə yarası alan əsgər iki gün sonra ölüb.

Oktyabrın 3-də Tavuşda müqavilə əsasında xidmət edən 28 yaşlı hərbçi Muşeğ Abovyan snayper tərəfindən vurularaq öldürülüb.

Oktyabrın 2-də Dərələyəzdə ağır bədən xəsarəti alan, əslən Şirak vilayətindən olan zabit hərbi hospitala yerləşdirilib. Onun vəziyyəti ağırdır. Həkimlər süni tənəffüs aparatına qoşulan zabitin sağalma şansının olmadığını deyirlər.

**AZƏRTAC-ın**
**materialları əsasında**

*Yeni kitablar*

# "Qəhrəman anası" kitabının təqdimat mərasimi keçirildi

*Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində Əməkdar mədəniyyət işçisi Zəminə Xınalının Milli Qəhrəman Gültəkin Əsgərovanın anası Rəfiqə xanıma həsr etdiyi "Qəhrəman anası" kitabının təqdimat mərasimi keçirildi.*



Tədbirdə Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin, Respublika Qadınlar Cəmiyyətinin və ictimaiyyətin nümayəndələri iştirak edirdilər.

Ümummilli lider Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi mayor İlkin Qayıbov tədbir iştirakçılarını salamladı, Zəminə Xınalıya yaradıcılığında uğurlar arzuladı.

Əməkdar mədəniyyət işçisi Zəminə Xınalı çıxışında təqdimat mərasiminin məhz "Beynəlxalq Müəllimlər Günü" ərəfəsində keçirilməsinin Rəfiqə Əsgərovanın pedaqoq olması ilə əlaqələndirərək bütün müəllimləri təbrik etdi. "Rəfiqə xanım deyəndə gözlərimizin önündə ağ saçlı, nurlu simalı mərd bir ana, vətənpərvər Azərbaycan qadını canlanır. O, ictimai xadim, pedaqoq, müəllim idi. Rəfiqə xanımın Vətən sevgisi, milli ruhu, qurub-yaratmaq həvəsini sizlərə izah etməyə söz tapmıram. Düşünürəm ki, bunun ən gözəl izahı qızı Milli Qəhrəman Gültəkin Əsgərovadır...

Respublika Şəhid Anaları Cəmiyyətinə rəhbərlik edən qəhrəman anası təcrübəli pedaqoq alim kimi vaxtı ilə Sovet məkanında - Moskvada, Kiyevdə, Minskdə, Alma-Atada, Daşkənddə, Leninqradda, Tiflisdə məruzələr edərək xalqımızı layiqincə təmsil edib. Rəfiqə xanım Vətənə layiqli övladlar böyütməsi ilə qürurlanardı. Dövlətimizin şəhidlərə, şəhid ailələrinə olan diqqət və qayğısı idi onu yaşadan. Ən böyük arzusu Gültəkinin şəhid olduğu torpaqları ziyarət etmək idi. Ömür vəfa etmədi...".

Zəminə Xınalı Rəfiqə xanımla olan görüşlərini, xatirələrini də tədbir iştirakçıları ilə bölüşdü.

Kitabın ön söz yazarlarından biri olan Dilarə Ağamusa Nağıyeva-Muxtarova Rəfiqə xanımın ömür yoluna nəzər salaraq, son mənzilə zabitlərin çiynində yola salınmasından kövrəkliklə söz açdı. Zəminə Xınalının "Qəhrəman anası" kitabını şəhid anasının ruhuna dərin ehtiram bildi.

Tədbirdə Miri Həsənov, Zemfira Məhərrəmli, Həmid Cəfərov, Bahar Qasımova, Azər Hacıbəyli, Sucəddin Abdullayev, Yasəmən Möhübbət qızı, Yadulla Quliyev, Ələkbər Həşimov, Malik Əhməd oğlu, Abutel Mirzəyeva və başqaları Zəminə xanımın yaradıcılığına nəzər saldılar, Milli Qəhrəmanlığından danışdılar, Rəfiqə xanımla bağlı xatirələrini bölüşdülər.

Sonda tədbir iştirakçılarına "Qəhrəman ana" kitabı hədiyyə edildi, xatirə şəkli çəkildi.

**Baş leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu",
foto
çavuş
Namiq PƏNAHOVUNDUR**



## "Səhra şəraitində qidalanmanın təşkili" mövzusunda məşğələ keçirilib

2019-cu ilin döyüş hazırlığı planına uyğun olaraq Müdafiə Nazirliyinin Maddi-Texniki Təminat Baş İdarəsi Arxa Cəbhə İdarəsinin Ərzaq xidməti tərəfindən qoşun növü, birlik, birləşmə və hissələrin ərzaq xidməti rəisləri ilə "Səhra şəraitində qidalanmanın təşkili" mövzusunda nümunəvi məşğələ keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, məşğələnin planına uyğun olaraq bölmənin ərzaq məntəqəsinin ərazidə açılması, səhra şəraitində yeməklərin hazırlanması, çörəyin bişirilməsi, hərbi qulluqçuların qidalanmasının təşkili üsulları praktiki olaraq nümayiş olunub, həmçinin uçot sənədlərinin düzgün aparılması və qorunması qaydaları izah edilib.

*Hərbi texnikalar, silahlar*

# 2K11 "Kruq" zenit-raket kompleksi



2K11 "Kruq" zenit-raket kompleksi orta və uzaq məsafələrdə saatda 1000 kilometrədək sürətlə uçan hava hədəflərini məhv etmək üçün təyin edilib. "Kruq" kompleksinin tərkibinə doqquz ədəd 2P24 buraxıcı qurğu, üç ədəd raketləri tuşlama stansiyası, aşkaretmə və hədəf göstərici stansiya, kompleksin raket silahlanmasına raketlərin tuşlama stansiyasından radio-komanda ilə idarə olunan ikipilləli zenit 3M8 (KS-400) tipli raket də daxildir. Marş qismində raketdə reaktiv-hava mühərrikindən istifadə edilir. Məlumata görə belə mühərrikdən istifadə çox rahat və təhlükəsizdir. Onun çənində kimyəvi aqressiv komponentlər yoxdur. Raketin buraxılması özüyeriyən tırtıllı 2P24 (KS-41) qurğusundan həyata keçirilir. Hansı ki, iki istiqamətləndirici raketdən ibarətdir. İstiqamətləndiricinin naqili hidravlikdir. Buraxıcı qurğunun hər bir raketi 10-15 dəqiqə olmaqla, 30 dəqiqə ərzində təchiz edilir.

2K11 "Kruq" zenit-raket kompleksinin buraxıcı qurğusu özüyeriyən SU-100P artilleriya qurğusunun bazası əsasında hazırlanıb. Tam olaraq 15 mm qalınlığında polad zirehlə möhkəmlənib. Asılqanları sərbəst, torsiondur, tırtılları rezin-metal şarnirdən ibarətdir. Bu da kompleksə torpaq yolda daha yüksək sürətlə hərəkət etməyə imkan verir. Raketlərin tuşlanmasını yerinə yetirən radiolokasiya stansiyası zenit idarə olunan raketə radio-komanda üzrə idarəetməni təmin edir. Stansiya avtomatik olaraq hədəfgöstərici üzrə hədəfləri aşkaretmə stansiyasından gələn informasiyaları emal edir və hədəflərin tez bir vaxtda axtarışını yerinə yetirir.

"Kruq" kompleksinin özüyeriyən dairəvi görünüşlü kəşfiyyat stansiyası 180 kilometrlik məsafədə olan qırıcıları (12 metrlik yüksəklikdə) aşkar edir. Hündürlüyə görə hədəfləri aşkaretmə diapazonu 500 metrdən 70 kilometrə qədərdir. Stansiya ağır artilleriya AT-T dartıcısının şassisində quraşdırılıb. Onun şassisinin hərəkətetmə mühərriki 12 silindirli, dördqatlı A-401 dizelli, 415 at gücündədir. 2K11 "Kruq" zenit-raket kompleksinin 2K11A, (1964,1967-ci illər), 2K11M "Kruq-M" (1971), 2K11M1 "Kruq-M1" (1974) kimi modifikasiyaları da mövcuddur.

2K11 "Kruq" zenit-raket kompleksinin (raketinin) uzunluğu 8436 mm, eni (raketin diametri) 850 mm, çəkisi 2459 kq, döyüş hissəsinin çəkisi 150 kiloqramdır. Eyni vaxtda 11 hədəfə atəş açır, tuşlanan raketlərin sayı: 22, dəqiqədə 1 yaylım atəşi açır. Atəş uzaqlığı 45 km-dir. Mərminin ilkin sürəti saniyədə 1000 metrdir.

**Hazıladı:
Svetlana YUSUBOVA,
"Azərbaycan Ordusu"**

# İdman

## Teymur Rəcəbov şahmat üzrə dünya kubokunun qalibi olub



Teymur Rəcəbov Azərbaycanın şahmat tarixində ilk dəfə dünya kubokunun qalibi olub.

Rusiyanın Xantı-Mansiysk şəhərində keçirilən turnirin finalında çinli Liren Dinqi məğlub edib.

Qrossmeysterlər finalda 10 görüş keçiriblər. Şahmatçılar arasında dörd klassik partiya oynanılıb. Klassik partiyanın birinci görüşündə zəka ustaları xalları yarı bölüblər. İkinci partiyada qara fiqurlarla oyunda məğlub olan şahmatçımız üçüncü qarşılaşmada 45-ci gedişdə rəqibini məğlub edib. Şahmatçıların dördüncü görüşündə də heç-heçə qeydə alınıb - 2:2. Finalda qalib müəyyənləşmədiyi üçün tay-breyk qarşılaşmaları oynanılıb. Tay-breyk çərçivəsində dörd rapid yarışında da qalib müəyyənləşməyib - 2:2. Blits partiyasında isə ardıcıl iki görüşdə qələbə qazanan T.Rəcəbov turnirin qalibi olub.

Beləliklə rəqibini 6:4 hesabı ilə məğlub edən T.Rəcəbov Azərbaycanın şahmat tarixində ilk dəfə dünya kuboku turnirinin qalibi olub.

Turnirin mükafat fondu 1,6 milyon dollardır.

## Azərbaycan millisi Moskvada keçirilən "Karate -1" Premyer Liqa turnirində üç medal qazanıb



Azərbaycan millisi Moskvada keçirilən "Karate -1" Premyer Liqa turnirində üç medal qazanıb.

Yarışda 75 kiloqram çəki dərəcəsində mübarizə aparan Rafael Ağayev mərakeşli Yassin Sekuri, Rodriqo İbanez (İspaniya) və Slovakiya təmsilçisi Matus Lieskovskini məğlub edərək yarımfinala yüksəlib. Finala gedən yolda karateçimizin rəqibi İran təmsilçisi Bəhmən Əsgəri olub. Rəqibinə qalib gələn R.Ağayev turnirin finalına yüksəlib. Qızıl medal uğrunda görüşdə qazaxıstanlı Yermek Aynəzərovu üstələyən karateçimiz turnirin qalibi olub.

Digər karateçimiz İrina Zaretska (68 kq) Braziliya təmsilçisi Natalia Spiqolon, danimarkalı Ketrin Pederson və çinli Linqlinq Tanqı məğlub edərək yarımfinala vəsiqə qazanıb. Marina Pakoviçə (Monteneqro) qalib gələn İ.Zaretska turnirin finalına adlayıb. Həlledici görüşdə çinli Qonq Liyə qalib gələn İ.Zaretska Premyer Liqa turnirinin qızıl medalını qazanıb.

## Şamaxıda sərbəst güləş üzrə VII açıq respublika turnirinə yekun vurulub



Oktyabrın 6-da Şamaxıda Əməkdar bədən tərbiyəsi və idman xadimi Oleq Krapivinin şərəfinə keçirilən sərbəst güləş üzrə VII açıq respublika turnirinə yekun vurulub.

Şamaxı Olimpiya İdman Kompleksində təşkil olunan ənənəvi yarışda 2003-2004-cü il təvəllüdlü yeniyetmə pəhləvanlar 10 çəki dərəsində mübarizə aparıblar.

Turnirdə Azərbaycan, Rusiya, İran, Ukrayna, Gürcüstan, Qazaxıstan və Qırğızıstandan ümumilikdə 350-dən çox güləşçi qüvvəsini sınayıb. Gərgin idman mübarizəsi şəraitində keçən yarışda Şərif Ulu Bilal (45 kq, Qırğızıstan), Elşən Babayev (48 kq, Azərbaycan), Əbdülrəhman İbrahimov (51 kq, Azərbaycan), Əli Qolizadeqav (55 kq, İran), Məmməd Əhmədov (60 kq, Azərbaycan), Əhməd Zaburbekov (65 kq, Rusiya), Osman Mintulayev (71 kq, Rusiya), Əmirəli Sabuteh (80 kq, İran), Xəlil Allahverdiyev (92 kq, Azərbaycan) və Səid-Hüseyn Əhmədov (110 kq, Rusiya) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Qeyd edək ki, komanda hesabında Azərbaycan birinci, İran ikinci, Rusiya isə üçüncü yeri tutublar.

**AZƏRTAC-ın materialları əsasında**

Kapitan Abdullazadə İlham Məmmədəli oğluna 2018-ci ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Vahid MƏHƏRRƏMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 609
Nüsxə 3950